# İstehlaka yararsız kartofun məhv edilməsinə dair məlumat (11 noyabr 2022)

Nəzarət tədbirləri çərçivəsində “Terabil AZ 22” MMC-nin Gürcüstan Respublikasından idxal etdiyi toxumluq kartof məhsulundan Agentlik əməkdaşları tərəfindən götürülən nümunələr təhlükəsizlik göstəricilərinin müəyyən edilməsi məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib.

Sınaq nəticələrinə əsasən, məhsulda karantin tətbiq edilən zərərvericilər - kartof yumrularında halqavarı çürümə (Clavibacter michiganensis subsp. sepedonicus) və kartof güvəsi (Phthorimaea operculella Zell.) aşkar edilib.

Faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb, istehlaka yararsız məhsul məişət tullantıları poliqonunda məhv edilib.